AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ

ƏMR

№ 27/f

Bakı şəhəri "14" aprel 2022-ci il

"Müfəttiş heyətinin peşəkar hazırlığının təşkili və onların ixtisaslarının artırılması Qaydası"nın qüvvəyə minməsi barədə

"Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın 3.2.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə "Müfəttiş heyətinin peşəkar hazırlığının təşkili və onların ixtisaslarının artırılması Qaydası" işlənib hazırlanmışdır.

Sözügedən sənədin tətbiqini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin 5.6.6-cı yarımbəndini rəhbər tutaraq,

əmr edirəm:

1. "Müfəttiş heyətinin peşəkar hazırlığının təşkili və onların ixtisaslarının artırılması Qaydası" 2022-ci il 15 aprel tarixindən qüvvəyə minsin.
2. Dövlət Mülki Aviasiya Agentliyinin (DMAA) və "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin aidiyyəti mütəxəssisləri tərəfindən Qaydanın öyrənilməsi və icrası təmin edilsin.
3. Qayda DMAA-nın rəsmi internet saytında dərc edilsin.
4. Əmr bütün şəxsi heyətə çatdırılsın.
5. Əmrin icrasına nəzarət direktorun müavini Hacıağa Hacıyevə həvalə edilsin.

Direktor **Arif Məmmədov**

Dövlət Mülki Aviasiya Agentliyinin
direktorunun
27/7№-li 14 aprel 2022-ci il tarixli
Əmri ilə
TƏSDİQ OLUNUB

MÜFƏTTİŞ HEYƏTİNİN PEŞƏKAR HAZIRLIĞININ TƏŞKİLİ VƏ ONLARIN İXTİSASLARININ ARTIRILMASI QAYDASI

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № AAR-GM-005

Nəşr № 01

Qüvvəyə minmə tarixi: 15 aprel 2022-ci il

Bakı şəhəri

https://www.caa.gov.az

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 Mündəricat

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ 1

0.1 Mündəricat 1

0.2 Səhifələrin Siyahısı 2

0.3 Sənədin Yayılma Siyahısı 3

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 4

1 Ümumi müddəalar 5

2 Əsas anlayışlar 5

3 Müfəttiş heyətinin peşəkar hazırlığına dair tələblər 7

4 Müfəttiş heyətinin ixtisasının artırılması ilə bağlı tələblər 7

5 Müfəttiş heyətinin ixtisasının artırılmasının əsas istiqamətləri 8

6 Müfəttiş heyətinin peşəkar hazırlığının təşkili 9

7 Müfəttiş heyətinin ilkin icbari təlimi 9

8 Müfəttiş heyətinin ixtisasartırma təlimi 10

9 Müfəttiş heyətinin mütəmadi ixtisasartırma təlimi 10

10 Müfəttiş heyətinin peşəkar ixtisasartırma təlimi 11

11 Aerodromların və helikopter meydançalarının yoxlanılmasını həyata keçirən müfəttiş heyəti üçün peşəkar hazırlığın əsas istiqamətləri 11

12 Uçuşa yararlılıq üzrə yoxlama həyata keçirən müfəttiş heyətinin peşəkar hazırlığının əsas istiqamətləri 12

13 Uçuş əməliyyatları üzrə yoxlama həyata keçirən müfəttiş heyətinin peşəkar hazırlığının əsas istiqamətləri 12

14 Hava hərəkətinin idarə edilməsi üzrə xidmət təminatçılarının fəaliyyətini yoxlayan müfəttiş heyətinin peşəkar hazırlığının əsas istiqamətləri 13

15 Hava nəqliyyatında təhlükəli yüklərin daşınması üzrə yoxlamalar həyata keçirən müfəttiş heyətinin peşəkar hazırlığının əsas istiqamətləri 14

16 Müfəttiş heyətinin təlimlərinin nəticələri üzrə sertifikatlar və onların qiymətləndirilməsi 14

17 Müfəttiş heyətinin peşəkar hazırlığının və ixtisaslarının artırılmasının maliyyələşdirilməsi 15

0.2 Səhifələrin Siyahısı

Səhifə	Qüvvəyə minmə tarixi	Reviziya №
1	15.APR.2022	00
2	15.APR.2022	00
3	15.APR.2022	00
4	15.APR.2022	00
5	15.APR.2022	00
6	15.APR.2022	00
7	15.APR.2022	00
8	15.APR.2022	00
9	15.APR.2022	00
10	15.APR.2022	00
1	15.APR.2022	00
12	15.APR.2022	00
13	15.APR.2022	00
14	15.APR.2022	00
15	15.APR.2022	00
16	15.APR.2022	00

0.3 Sənədin Yayılma Siyahısı

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirilib:
Master	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	Q-Pulse
2	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	DMAA-nın rəsmi internet saytı

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: *Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.*

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı

Nəşr/Dəyişiklik №:	Nəşr/Dəyişikliyin tarixi:	Qüvvəyə minib:	Səbəb
Nəşr № 01	15.APR.2022	Dir.Əmri № 27/7 14.04.2022	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmi şdəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin actual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

1 ÜMUMI MÜDDƏALAR

1.1 "Müfəttiş heyətinin peşəkar hazırlığının təşkili və onların ixtisaslarının artırılması Qaydası" (bundan sonra – Qayda) "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanının 3.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyi sahəsində fəaliyyət göstərən müfəttiş heyətinin peşəkar hazırlığının təşkili və onların ixtisaslarının artırılmasının əsas istiqamətlərini (müfəttiş heyəti müfəttiş yoxlamalarını müvafiq olaraq aidiyyati sahələr üzrə ixtisasartırma keçmədən səmərəli həyata keçirə bilmədikləri üçün hər bir sahənin müvafiq istiqamətləri üzrə ixtisasartırmaya dair İCAO tərəfindən tələblər müəyyən edilmişdir) və tədbirlər məcmusunu nəzərdə tutur.

1.2 Bu Qaydanın əsas məqsədi uçuşların təhlükəsizliyinin təmin edilməsində iştirak edən müfəttiş heyətinin peşəkar hazırlığını, bilik və bacarıqlarını artırmaqla, uçuşların təhlükəsizliyi sahəsində ixtisaslı kadrların hazırlanması və müfəttiş heyətinin biliklərinin artırılması yolu ilə uçuşların təhlükəsizliyinin, müntəzəmliliyinin və səmərəliliyinin təmin edilməsidir.

1.3 Bu Qayda "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, Beynəlxalq Mülki Aviasiya Təşkilatının (bundan sonra – ICAO) standartları və tövsiyə olunan təcrübəsi, habelə uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq təcrübə nəzərə alınaraq hazırlanmışdır.

2 ƏSAS ANLAYIŞLAR

2.1 Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1 **Aeronaviqasiya xidmətləri** - rabitə, naviqasiya və müşahidə, aeronaviqasiya üçün meteoroloji xidmətlər, axtarış və xilasetmə, aviasiya məlumat xidmətləri daxil olmaqla məlumatların emalı, müəyyən formata salınması və ötürülməsi məqsədilə hava hərəkətinin təşkilinə yönəldilmiş xidmətlər;

2.1.2 **Audit** - yoxlama meyarlarının və tələblərinin təmin olunduğunun obyektiv qiymətləndirilməsi və sübut əldə edilməsi üçün sistemli, müstəqil və sənədləşdirilmiş proses;

2.1.3 **Beynəlxalq standartlar** - hava gəmilərinin və aviasiya məmulatının fiziki xassələrinə, konfiqurasiyasına, material hissələrinə, texniki xüsusiyyətlərinə, habelə aviasiya personalına dair tətbiqini ICAO-nun zəruri hesab etdiyi tələblər; ("Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"ndan götürülmüşdür)

2.1.4 **Hava hərəkətinin idarə edilməsi** - hava gəmilərinin bir-biri ilə və ya manevretmə meydanında olan maneələrlə toqquşmalarının qarşısının alınması, hava hərəkəti axınının sürətləndirilməsi və nizamlı axınının saxlanılması məqsədilə hava hərəkətinin tənzimlənməsi;

2.1.5 **Helikopter meydançası** - helikopterlərin gəlməsi, getməsi və ya səth üzərində hərəkəti üçün bütövlükdə və ya qismən istifadə edilməsi nəzərdə tutulan aerodrom və ya tikili və qurğu üzərində olan müəyyən edilmiş sahə;

2.1.6 **Heyət üzvü** - uçuş vaxtı hava gəmisində uçuşun təhlükəsiz yerinə yetirilməsi üzrə vəzifələri yerinə yetirmək üçün istismarçı tərəfindən təyin edilmiş şəxs;

2.1.7 **Xidmət təminatçısı** - tanınmış təlim təşkilatları, aerodrom operatorları, hava gəmisi istismarçıları, o cümlədən hava gəmisi, mühərrik və pərlərin istehsalı və quraşdırılması üçün məsul olan və aviasiya məmulatlarını, aeronaviqasiya xidmətlərini təmin edən təşkilat; (Aviasiya haqqında yeni Qanun layihəsindən götürülmüşdür)

2.1.8 **Müfəttiş yoxlaması** - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – Agentlik) tərəfindən verilən şəhadətnamənin, sertifikatın, tanınmanın və ya icazənin tələblərinə uyğunluğun təsdiq edilməsi üçün səlahiyyətli şəxs tərəfindən xüsusi fəaliyyətin, məmulat və xidmətlərin yoxlanılması;

2.1.9 **Sertifikat** - müfəttiş heyətinin müfəttiş yoxlamasını həyata keçirməsi üçün normativ sənədlərlə müəyyən edilmiş tələblərə uyğunluğunun yoxlanılması nəticəsində verilən istənilən şəhadətnamə, icazə, lisenziya, tanınma və ya digər təsdiqləyici sənəd;

2.1.10 **Sertifikatlaşdırma** - fiziki və ya hüquqi şəxsin, məmulatın və xidmətlərin tələblərə uyğunluğunu təsdiq edən və sertifikatın verilməsi yolu ilə rəsmiləşdirilən müvafiq qiymətləndirməyə əsaslanan tanınma prosesi;

2.1.11 **Səlahiyyətli şəxs** - Agentlik tərəfindən qanunvericiliklə müəyyən olunmuş qaydada səlahiyyət verilmiş şəxs; (Aviasiya haqqında yeni Qanun layihəsindən götürülmüşdür)

2.1.12 **Təhlükəli yüklər** - hava gəmilərində daşınarkən, yüklənilərkən və yaxud xidmət təminatçıları tərəfindən saxlanılarkən ətraf mühitin çirklənməsinə səbəb olan insanların və digər canlıların sağlamlığına və həyatına, uçuşun təhlükəsizliyinə və əmlakın mühafizəsinə təhlükə yarada bilən, eləcə də onların xəstələnməsinə, xəsarət, travma, kontuziya almasına və ölümünə səbəb ola biləcək məmulatlar, maddələr və ya qurğular;

2.1.13 **Tövsiyə olunan beynəlxalq təcrübə** - hava gəmilərinin və aviasiya məmulatının fiziki xassələrinə, konfiqurasiyalarına, material hissələrinə, texniki xüsusiyyətlərinə, habelə aviasiya personalına tətbiqini ICAO-nun məqsədəuyğun hesab etdiyi tələblər;

2.1.14 **Təlim proqramı** - ardıcıl məqsədləri, vəzifələri, məzmunu, təlimə aid tədbirləri və bunların əsasını təşkil edən təlim materiallarını və vasitələrini, qiymətləndirmə formalarını və mexanizmlərini, həmçinin gözlənilən nəticələri əhatə edən vahid məqsədə yönəldilmiş mövzular və sənədlər toplusu;

2.1.15 **Uçuş heyətinin üzvü** - uçuş vaxtı hava gəmisinin istismarı üçün əsas vəzifələri yerinə yetirmək məqsədilə təyin edilmiş və müvafiq qaydada şəhadətnamə verilmiş şəxs;

2.1.16 **Uçuşu imitasiya edən təlim qurğusu** - yerdə uçuş şəraitini modelləşdirən hər hansı cihaz növü, o cümlədən uçuş trenajorları, uçuş və naviqasiya prosedurlarını əhatə edən təlim qurğuları.

3 MÜFƏTTİŞ HEYƏTİNİN PEŞƏKAR HAZIRLIĞINA DAIR TƏLƏBLƏR

3.1 Uçuşların təhlükəsizliyi sahəsində yoxlama, audit və monitorinqlərin aparılmasına cəlb edilən müfəttişlər:

3.1.1 Təftiş və tamhəcmli yoxlamaların, uçuşların təhlükəsizliyi sisteminin təhlükəsizlik vəziyyətinin qiymətləndirilməsini, icmalını və ya sınağını həyata keçirməyi bacarmalı;

3.1.2 Uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq təcrübəni və prosedurları bilməli;

3.1.3 Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın müddəalarını bilməli və onların yoxlama obyekti olan aviasiya subyektləri tərəfindən necə tətbiq edilməsi barədə məlumatlı olmalı;

3.1.4 Uçuşların təhlükəsizliyinin təmin edilməsi metodlarına və texnologiyalarına dair təcrübi bilik və bacarıqlara malik olmalı;

3.1.5 Təftiş edilən və fəaliyyəti yoxlanılan təşkilatdan asılılığa yol verməməli;

3.1.6 Müfəttişin öz vəzifə səlahiyyətlərini düzgün və qanuni həyata keçirməsinə maneə olacaq hər hansı müqavilə bağlamamalı və danışığa girməməli;

3.1.7 Yoxlama nəticəsində əsaslandırılmış qərar qəbul etməli;

3.1.8 Yoxlamanı təsdiq edilmiş plan üzrə tam, obyektiv, qərəzsiz və hərtərəfli aparmalı;

3.1.9 Vəzifə səlahiyyətlərini icra edərkən məsuliyyətli olmalıdır.

4 MÜFƏTTİŞ HEYƏTİNİN IXTISASININ ARTIRILMASI ILƏ BAĞLI TƏLƏBLƏR

4.1 Müfəttiş heyətinin peşəkarlıq səviyyəsinin və əməyinin keyfiyyətinin yüksəldilməsi, onların peşə bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi, nəzəri biliklərinin təcrübə ilə əlaqələndirilməsi, onlar tərəfindən daha müasir peşə bacarıqlarının qazanılması, yeni texnologiyalar və innovasiyalar sisteminin tətbiqi üzrə təcrübənin əldə edilməsi məqsədilə müfəttiş heyətinin ixtisasının artırılması sahəsində tədbirlər görülməlidir.

4.2 Müfəttiş heyətinin ixtisasının artırılması bu Qaydanın 4.3-cü hissəsində nəzərdə tutulmuş tədris-təlim müəssisələrində müvafiq sahədə ixtisaslaşmış mütəxəssislər tərəfindən əvvəlcədən planlaşdırılmış proqram üzrə yeni texnologiyaların öyrənilməsi və innovativ vasitələrdən istifadə edilməklə həyata keçirilir.

4.3 Müfəttiş heyətinin ixtisasının artırılması üzrə təlimlər şəbəkəsinə Azərbaycan Respublikasının və xarici ölkələrin ali təhsil müəssisələri, müvafiq ixtisasartırma müəssisələri və ixtisas profilinə uyğun elm, təhsil və istehsalat müəssisələri, mülki aviasiya sahəsində beynəlxalq təşkilatlar və digər tədris-təlim müəssisələri aiddir.

4.4 Müfəttiş heyətinin ixtisasının artırılması zamanı mütəxəssisin ixtisas sahələri üzrə nəzəri bilikləri əsas götürülür.

4.5 Müfəttiş heyətinin ixtisasının artırılması zamanı aşağıdakılar nəzərə alınır:

4.5.1 Müvafiq ixtisas üzrə nəzəri və təcrübi hazırlıq;

4.5.2 Əvvəllər həyata keçirilmiş müfəttiş yoxlamaları nəticəsində müəyyən edilmiş nöqsanların aradan qaldırılması üzrə yeniliklərin və müasir yanaşmaların əhəmiyyəti;

4.5.3 Mövzular üzrə diskussiyaların və məsləhət saatlarının təşkili;

4.5.4 Konfranslarda, müzakirələrdə, müşavirələrdə, işgüzar görüşlərdə və seminarlarda iştirak;

4.5.5 Müfəttiş heyətinin ixtisasının artırılması nəticələri barədə hesabatın hazırlanması.

4.6 Müfəttiş heyətinin ixtisasının artırılması aşağıdakı tədbirlərdən ibarətdir:

4.6.1 Yoxlama sahəsi ilə bağlı yeniliklərlə operativ tanışlıq və öz həmkarları ilə təcrübə mübadiləsi;

4.6.2 Distant (məsafədən) ötürmə üsulu ilə yeni materialların əldə edilməsi, onların yayılması və bu istiqamətdə fikir mübadilələrinin aparılması;

4.6.3 Aktual mövzuların dinlənilməsi üçün sahə üzrə qabaqcıl mütəxəssislərin dəvət olunması, problemli mövzularla bağlı müzakirələrin təşkili və görülmüş tədbirlərin nəticələrinin təhlili;

4.6.4 Əlavə təhsildə tətbiq olunacaq modulların, eləcə də yeni təlim materiallarının müzakirəsində iştirak edilməsi və yeni modullar haqqında əsaslandırılmış təkliflərin verilməsi.

5 MÜFƏTTIŞ HEYƏTININ IXTISASININ ARTIRILMASININ ƏSAS ISTIQAMƏTLƏRI

5.1 Müfəttiş heyətinin ixtisasartırma təlimlərində dinləyicilərin bilik, bacarıq və səriştələrinin, peşəkarlıq səviyyəsinin, dünyagörüşünün inkişaf etdirilməsi təlim modulları üzrə həyata keçirilir.

5.2 Təlim modulu təlim prosesində nəzərdə tutulmuş müəyyən istiqamətlərdə bilik və bacarıqların əldə edilməsinə, dünyagörüşünün formalaşdırılmasına xidmət edən biliklər sistemini ifadə edir.

5.3 Təlim modullarının sayı və modullar üzrə təlim saatlarının tələb olunan minimum həcmi Agentlik tərəfindən müəyyən edilir.

5.4 Ayrı-ayrı kateqoriyadan olan kadrlar üçün bir ixtisasartırma dövrü üzrə müəyyən edilən təlim saatlarının ümumi miqdarı, modulların mövzuları, onların vəzifələri, gözlənilən nəticələr və bir modula düşən təlim saatları bir-birindən fərqlənə bilər.

5.5 Peşə fəaliyyəti sisteminin ayrı-ayrı kateqoriyadan olan kadrların tələbatı və ehtiyacları nəzərə alınaraq, təlim proqramının məzmunu mütəmadi olaraq yenilənir və təkmilləşdirilir.

5.6 Uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət nəzarətinin Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və beynəlxalq standartlara uyğun olaraq, səmərəli həyata keçirilməsinin təmin edilməsi üçün müfəttiş heyəti aşağıdakı sahələr üzrə təlimlər keçir:

5.6.1 Uçuşa yararlılıq;

5.6.2 Hava gəmilərinin istismarı;

5.6.3 Aerodrom və helikopter meydançalarının fəaliyyəti;

5.6.4 Hava nəqliyyatının idarə edilməsi;

5.6.5 Sertifikatlaşdırma və şəhadətnamələrin verilməsi;

5.6.6 Xarici hava gəmilərinin yoxlanılması;

5.6.7 Təhlükəli yüklərin daşınması;

5.6.8 Aviasiya hadisələrinin araşdırılması.

6 MÜFƏTTIŞ HEYƏTININ PEŞƏKAR HAZIRLIĞININ TƏŞKILI

6.1 Bu Qaydanın 3-cü hissəsi ilə müəyyən edilmiş tələblərin yerinə yetirilməsinə hazırlığın təmin edilməsi məqsədilə hər bir müfəttiş Agentlik tərəfindən təsdiq edilmiş illik Təlim Proqramı ilə müəyyən edilmiş müxtəlif təlim mərhələlərindən keçir.

6.2 Bu Qaydanın 6.1-ci bəndində qeyd edilən Təlim Proqramı uçuşların təhlükəsizliyi sahəsində ehtiyaclar qiymətləndirilərək illik təlim planı hazırlandıqdan sonra təsdiq edilir.

6.3 Təlimə göndərilən hər bir müfəttiş beynəlxalq standartlar əsasında verdiyi imtahan nəticəsində əldə etdiyi ingilis dili biliklərini təsdiq edən sertifikata malik olmalıdır.

6.4 Müfəttişlər üçün keçirilən təlimlər ilkin, istehsalatdan ayrılmaqla ixtisaslaşdırılma, istehsalatdan ayrılmadan ixtisasartıma, mütəmadi ixtisasartırma təlimləri kimi bir sıra mərhələlərdən ibarətdir.

6.5 Müfəttiş heyəti üçün təşkil edilən təlimlər birbaşa və ya distant (məsafədən) formada həyata keçirilir.

6.6 Keyfiyyətə nəzarət məqsədilə Agentlik tərəfindən kadrların ixtisasartırma təhsili haqqında müntəzəm olaraq yenilənən məlumat bazası yaradılır.

6.7 Keyfiyyətin təmin edilməsi məqsədilə ixtisasartırma proqramlarının həyata keçirilməsi və onun nəticələri üzrə Agentlik tərəfindən mütəmadi olaraq monitorinqlər keçirilir və qiymətləndirilir.

6.8 Keyfiyyətə nəzarətin təmin olunması Agentlik tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

6.9 İxtisaslı kadr ehtiyatının yaradılması məqsədilə Agentlik tərəfindən müfəttiş heyətinin əlavə təhsili sahəsində ölkədaxili və beynəlxalq layihələr, habelə qrant layihələri vasitəsilə təlim kursları təşkil edilə bilər.

7 MÜFƏTTIŞ HEYƏTININ ILKIN ICBARI TƏLIMI

7.1 Müfəttiş kimi fəaliyyət göstərmək üçün şəxs Agentliyin təsdiq etdiyi təlim proqramı üzrə ilkin icbari təlim keçməlidir.

7.2 İlkin icbari təlim müddətində müfəttişlər onlar üçün məcburi olan beynəlxalq və Azərbaycan Respublikasının normativ hüquqi aktları barədə məlumatlandırılır.

7.3 İlkin icbari təlim müfəttiş heyətinin iş yerindən ayrılmadan həyata keçirilir.

7.4 İlkin icbari təlimi müvəffəqiyyətlə başa vurmuş müfəttişlər vəzifələrinin icrasına buraxılırlar, o cümlədən təftiş qrupunun işinə cəlb olunurlar.

7.5 İlkin icbari təlimin nəticələri Agentliyin yaratdığı komissiya tərəfindən qiymətləndirilir.

7.6 İlkin icbari təlim xarici ölkələrdə həyata keçirildiyi halda, onun nəticələri təlimlərin qeydiyyatı sisteminə daxil edilir.

8 MÜFƏTTIŞ HEYƏTININ IXTISASARTIRMA TƏLIMI

8.1 İlkin icbari təlimi müvəffəqiyyətlə başa vurmuş və səlahiyyətlərinin icrasına buraxılmış müfəttiş heyəti səlahiyyətlərinin icrasına başladıqdan 3 ay sonra icbari ixtisasartırma təlimi keçir.

8.2 İxtisasartırma təlimi zamanı müfəttişlər illik planla müəyyən olunmuş yoxlamalara cəlb edilir və ilkin icbari təlim zamanı əldə etdikləri nəzəri bilikləri tətbiq etmək sahəsində bacarıqlarını artırırlar.

8.3 Agentlik müfəttişlər üçün iş yerindən ayrılmadan ixtisasartırma üzrə təlim proqramını təsdiq edir və təcrübəli müfəttişləri ixtisasartırma təlimlərinə cəlb edir.

9 MÜFƏTTIŞ HEYƏTININ MÜTƏMADI IXTISASARTIRMA TƏLIMI

9.1 Xidmət təminatçılarının və aviasiya sənayesinin ehtiyaclarına cavab verən müfəttiş heyətinin formalaşdırılması, onların müasir texnologiya və müxtəlif metodlar istifadə etməklə yoxlamalar aparmasını təmin etmək məqsədilə Agentlik onların mütəmadi təlimlər keçməsini təmin edir.

9.2 Müfəttiş heyətinin mütəmadi təlimləri onların təcrübə və bacarıqlarının yüksək səviyyədə saxlanması üçün onların ixtisasartırmasını özündə ehtiva edir.

9.3 Müfəttiş heyətinin mütəmadi ixtisasartırma təhsili onların vəzifə funksiyasının icrasına mane olmamalıdır. Yenidənhazırlıq üzrə təhsil aşağıda göstərilən hallara uyğun kadrların hazırlanmasına tələbat yarandıqda, müvafiq təlim proqramları əsasında həyata keçirilir:

9.3.1 İlkin kadr hazırlığı kifayət etməyən ixtisaslar üzrə kadrların yenidən hazırlanması;

9.3.2 Müəyyən müddət işləmiş qeyri-ixtisas təhsilli kadrların işlədiyi ixtisas üzrə yenidən hazırlanması;

9.3.3 Sahənin təşkili və idarə olunması üzrə kadrların yenidən hazırlanması.

9.4 Yenidənhazırlıq təhsili əyani formada həyata keçirilir. Bu halda dinləyicilər iş yerindən ayrılmaqla ixtisaslarını artırırlar.

9.5 ”Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduğu hallarda yenidən hazırlıq üzrə təhsil distant (məsafədən) formada həyata keçirilə bilər.

10 MÜFƏTTIŞ HEYƏTININ PEŞƏKAR IXTISASARTIRMA TƏLIMI

10.1 Yoxlamalar zamanı yaranan problemlərin səmərəli həll edilməsi məqsədilə təcrübəli müfəttiş heyəti daha yüksək ixtisasartırma tələblərinə cavab verən təlimlərə cəlb edilirlər.

10.2 Bu Qaydanın 10.1-ci bəndində qeyd edilən təlimlər müfəttiş heyətində aşağıdakı sahələr üzrə işləməyə imkan verir:

10.2.1 Nəzarət üzrə proqramların icrasının yoxlanılması və normativ şərtlərə əsaslanaraq müxtəlif intizamlı müfəttiş qruplarına rəhbərlik etməyə;

10.2.2 Texniki uyğunluq haqqında yoxlamanın aparılması sisteminin səmərəliliyinin qiymətləndirilməsinə;

10.2.3 Yoxlama nəticəsində aşkar olunmuş pozuntuların uçuşların təhlükəsizliyinə təsirinin aradan qaldırılması üçün görülməsi zəruri olan tədbirlərin müəyyən edilməsinə .

11 AERODROMLARIN VƏ HELIKOPTER MEYDANÇALARININ YOXLANILMASINI HƏYATA KEÇIRƏN MÜFƏTTIŞ HEYƏTI ÜÇÜN PEŞƏKAR HAZIRLIĞIN ƏSAS ISTIQAMƏTLƏRI

11.1 Aerodromların və helikopter meydançalarının yoxlanılmasını həyata keçirən müfəttiş aerodromlar, onların layihələndirilməsi və ərazisində göstərilən xidmətlərə, o cümlədən helikopter meydançalarına və onların idarə olunmasına, onların ərazisində göstərilən xidmətlərin təşkilinə dair ICAO-nun beynəlxalq standartları və tövsiyə olunan təcrübəsi ilə müəyyən edilmiş tələblər haqqında biliyə malik olmalıdır.

11.2 Aerodromlarda və helikopter meydançalarında uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müfəttişlərin təlimi aşağıdakı sahələri əhatə edir:

11.2.1 Aerodromların və helikopter meydançalarının təlimatlarında və aviasiya məlumatlar toplusunda olan məlumatların yoxlanılması və etibarlılığının müəyyən edilməsi;

11.2.2 Aerodromlarda və helikopter meydançalarında həyata keçirilən fəaliyyətin auditi və yerində yoxlanılması;

11.2.3 Digər müfəttişlərlə əməkdaşlıq çərçivəsində aerodromların və helikopter meydançalarının aeronaviqasiya fəaliyyətinin öyrənilməsi və uçuşların qiymətləndirilməsi;

11.2.4 Aerodromların və helikopter meydançalarının layihələndirilməsinə nəzarət edilməsi;

11.2.5 Aerodromların və helikopter meydançalarının fövqəladə planlarının və bununla bağlı testlərinin yoxlanılması;

11.2.6 Axtarış və yanğınsöndürmə xidmətlərinin qiymətləndirilməsi və yoxlanılması;

11.2.7 Aerodromların və helikopter meydançalarının sertifikatlaşdırılması.

12 UÇUŞA YARARLILIQ ÜZRƏ YOXLAMA HƏYATA KEÇİRƏN MÜFƏTTİŞ HEYƏTİNİN PEŞƏKAR HAZIRLIĞININ ƏSAS ISTIQAMƏTLƏRI

12.1 Uçuşayararlılıq üzrə yoxlamalar həyata keçirən müfəttiş, xidmət təminatçıları da daxil olmaqla, hava gəmisinin və aviasiya məhsullarının layihələndirilməsinin və sertifikatlaşdırılmasının uçuşayararlılığı üzrə ICAO-nun beynəlxalq standartları və tövsiyə olunan təcrübəsi ilə müəyyən edilmiş tələblərə dair biliyə malik olmalıdır.

12.2 Uçuşayararlılığın mütəmadi yoxlanılması üzrə uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müfəttişlərin təlimi aşağıdakı sahələri əhatə edir:

12.2.1 Kommersiya təyinatlı hava nəqliyyatının xidmət təminatçılarının fəaliyyətinin yoxlanılması;

12.2.2 Ümumi təyinatlı aviasiya xidmət təminatçılarının fəaliyyətinin yoxlanılması;

12.2.3 Uçuş əməliyyatları üzrə digər müfəttişlərlə birgə xüsusi avadanlığın yoxlanılması və avadanlıqların zəruri olan minimal həddinin təsdiq edilməsi;

12.2.4 Hava gəmisinə xidmət proqramının təsdiq edilməsi və ona nəzarət olunması;

12.2.5 Uçuşa yararlılıq üzrə sertifikatların verilməsi və geri alınması;

12.2.6 Hava gəmilərinin idxal-ixrac edilməsi və qeydiyyata alınması;

12.2.7 Hava gəmisinin növü üzrə verilmiş sertifikat əsasında onun növ layihəsində hər hansı dəyişikliklərin təsdiq edilməsi;

12.2.8 Xidmət təminatçılarının fəaliyyətinin yoxlanılmasının həyata keçirilməsi və təsdiqi;

12.2.9 İstehsalçı təşkilatların fəaliyyətinin yoxlanılması və təsdiq edilməsi;

12.2.10 Təlim təşkilatlarının fəaliyyətinin yoxlanılmasının həyata keçirilməsi və təsdiqi;

12.2.11 Təlim proqramlarının qiymətləndirilməsi;

12.2.12 Hava gəmisinə texniki, mühəndis və mexaniki xidmət göstərənlərin fəaliyyətinin qiymətləndirilməsi.

13 UÇUŞ ƏMƏLIYYATLARI ÜZRƏ YOXLAMA HƏYATA KEÇİRƏN MÜFƏTTİŞ HEYƏTİNİN PEŞƏKAR HAZIRLIĞININ ƏSAS ISTIQAMƏTLƏRI

13.1 Uçuş əməliyyatları üzrə yoxlamalar həyata keçirən müfəttiş, uçuş heyətinin və hava gəmisinin heyət üzvlərinin yoxlanılması da daxil olmaqla, hava gəmisinin uçuş əməliyyatlarına dair ICAO-nun beynəlxalq standartları və tövsiyə olunan təcrübəsi ilə müəyyən edilmiş tələblərə dair biliyə malik olmalıdır.

13.2 Uçuş əməliyyatları üzrə yoxlamalar vasitəsilə uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müfəttişlərin təlimi aşağıdakı sahələri əhatə edir:

13.2.1 Uçuş zamanı yoxlamalar da daxil olmaqla, mülki hava gəmilərinin uçuş heyətinin və heyət üzvlərinin yoxlanılmasını;

13.2.2 Ümumi təyinatlı aviasiya uçuş əməliyyatlarının yoxlanılmasını;

13.2.3 Xüsusi uçuş əməliyyatlarının yoxlanılmasını və təsdiq edilməsini;

13.2.4 Təlim təşkilatlarının yoxlanılmasını və təsdiq edilməsini;

13.2.5 Uçuş heyətinin və heyət üzvlərinin təlim proqramlarının təsdiq edilməsini;

13.2.6 Uçuşu imitasiya edən təlim qurğularının yoxlanılması və təsdiq edilməsini;

13.2.7 Uçuş heyətinin və heyət üzvlərinin qiymətləndirilməsi və sertifikatlaşdırılması.

14 HAVA HƏRƏKƏTININ IDARƏ EDILMƏSI ÜZRƏ XIDMƏT TƏMINATÇILARININ FƏALIYYƏTINI YOXLAYAN MÜFƏTTIŞ HEYƏTININ PEŞƏKAR HAZIRLIĞININ ƏSAS ISTIQAMƏTLƏRI

14.1 Hava hərəkətinin xidmət təminatçılarının fəaliyyətini yoxlayan müfəttiş, hava hərəkətinin idarə edilməsi üzrə xidmət təminatçılarına dair tələblər də daxil olmaqla, hava hərəkətinin idarə edilməsinə dair ICAO-nun beynəlxalq standartları və tövsiyə olunan təcrübəsi ilə müəyyən edilmiş tələblərə dair biliyə malik olmalıdır.

14.2 Hava hərəkətinin xidmət təminatçılarının fəaliyyəti üzrə yoxlamalar vasitəsilə uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müfəttişlərin təlimi aşağıdakı sahələri əhatə edir:

14.2.1 Hava hərəkətinin xidmət təminatçılarının, uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi də daxil olmaqla, xidmətlərinin yoxlanılması;

14.2.2 Ölkə daxilində meteoroloji xidmət təminatçılarının, həmçinin xarici ölkələrin xidmət təminatçıları tərəfindən təmin edilən xidmətlərin yoxlanılması;

14.2.3 Xidmət təminatçılarının aeronaviqasiya məlumatlarının və həmin məlumatların idarə edilməsinin yoxlanılması;

14.2.4 Rabitə, naviqasiya və nəzarət infrastrukturunun yoxlanılması;

14.2.5 Kosmik hava strukturunda baş verən dəyişikliklərin və layihə təşkilatı tərəfindən müəyyən edilmiş uçuş sxemlərinin təsdiq edilməsi;

14.2.6 Axtarış və xilasetmə əməkdaşlığının yoxlanılması;

14.2.7 Hava nəqliyyatına nəzarət üzrə təlim təşkilatlarının və onların proqramlarının təsdiq edilməsi;

14.2.8 Hava hərəkətinə xidmət sahəsində digər təlim proqramlarının təsdiq edilməsi; (Agentlik tərəfindən təsdiq edilməlidir)

14.2.9 Hava nəqliyyatına nəzarət üçün uçuşu imitasiya edən təlim cihazlarının təsnifləşdirilməsi və sertifikatlaşdırılması;

14.2.10 Hava hərəkətinin idarə edilməsi üzrə nəzarətçilərin sertifikatlaşdırılması (şəhadətləndirilməsi).

15 HAVA NƏQLIYYATINDA TƏHLÜKƏLI YÜKLƏRIN DAŞINMASI ÜZRƏ YOXLAMALAR HƏYATA KEÇIRƏN MÜFƏTTIŞ HEYƏTININ PEŞƏKAR HAZIRLIĞININ ƏSAS ISTIQAMƏTLƏRI

15.1 Hava nəqliyyatında təhlükəli yüklərin daşınması üzrə yoxlamalar həyata keçirən müfəttiş, təhlükəli yüklərin hava nəqliyyatı vasitəsilə daşınmasına dair Azərbaycan Respublikasının normativ hüquqi aktları və ICAO-nun beynəlxalq standartları və tövsiyə olunan təcrübəsi ilə müəyyən edilmiş tələblərə dair biliyə malik olmalıdır.

15.2 Hava nəqliyyatında təhlükəli yüklərin daşınmasına nəzarəti həyata keçirən müfəttişlərin təlimi aşağıdakı sahələri əhatə edir:

15.2.1 Təhlükəli yüklərin daşınması qaydaları və buna dair təlim proqramları da daxil olmaqla, təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınmasına icazələrin verilməsi;

15.2.2 Təhlükəli yüklərin daşınması üçün nəzərdə tutulmayan hava nəqliyyatı vasitələri, hava nəqliyyatı operatorları tərəfindən təhlükəli yüklərin daşınması üzrə qaydaların və bu sahədə təlim proqramlarının təsdiq edilməsi;

15.2.3 Uçuş əməliyyatlarının təhlükəli yüklərin daşınması qaydalarına münasib olmasının müəyyən edilməsi;

15.2.4 Təhlükəli yüklərin daşınması ilə əlaqədar yaranan aviasiya insidentlərinin və hadisələrinin araşdırılması.

16 MÜFƏTTIŞ HEYƏTININ TƏLIMLƏRININ NƏTICƏLƏRI ÜZRƏ SERTIFIKATLAR VƏ ONLARIN QIYMƏTLƏNDIRILMƏSI

16.1 Təlimləri müvəffəqiyyətlə başa vuran müfəttiş heyətinə təlim keçən təşkilatlar tərəfindən vahid formalı sertifikat verilir.

16.2 Sertifikatda təlim modulunun və proqramın adı, təlimin ümumi müddəti, təlim saatları, müfəttişin təlim üzrə qiymətləndirilməsi və təlim müəssisəsinin adı qeyd olunur.

16.3 Sertifikatlar təlim keçən təşkilatların səlahiyyətli şəxsləri tərəfindən imzalanır və möhürlənir. Təlimləri başa vurmuş hər bir müfəttiş təlimdə iştirakla bağlı hesabatı Agentliyə təqdim edir.

16.4 16.4. Sertifikatın surəti hər bir müfəttişin şəxsi işinə əlavə edilir və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi zamanı nəzərə alınır.

16.5 Sertifikatlar təlimlərin keyfiyyətinin nəzarətdə saxlanılması və növbəti təlimlərin zərurətinin müəyyən edilməsi baxımından Agentlik tərəfindən qiymətləndirilir.

16.6 Təlimin keyfiyyətinin müəyyən edilməsi və gələcəkdə zəruri olacaq mövzular üzrə təlimlərin planlaşdırılması Agentlik tərəfindən həyata keçirilir.

16.7 Təlimin qiymətləndirilməsi aşağıdakı meyarlar üzrə aparılır:

16.7.1 Müfəttişin təlimdə iştirakı haqqında təlim təşkilatı tərəfindən göndərilmiş rəy;

16.7.2 Təlimə cəlb edilmiş müfəttişin təlim proqramı, təlimçilər və təlimin keçirilməsi haqqında rəyi;

16.7.3 Təlimdə iştirakı və ya müvəffəqiyyətlə bitirməsi haqqında sertifikatın alınması.

17 MÜFƏTTIŞ HEYƏTININ PEŞƏKAR HAZIRLIĞININ VƏ IXTISASLARININ ARTIRILMASININ MALIYYƏLƏŞDIRILMƏSI

17.1 Agentliyin müfəttiş heyətinin peşəkarlıq səviyyəsinin artırılması və təkmilləşdirilməsi xərcləri bu məqsədlə Agentlik üçün ayrılan büdcə vəsaiti hesabına həyata keçirilir.

17.2 Müfəttiş heyətinin təlimlərinin formaları büdcədənkənar vəsaitlər, habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilə bilər.

17.3 Hər il Agentliyin büdcəsinin tərtib edilməsi zamanı müfəttiş heyətinin peşəkar hazırlığının və ixtisasasının artırılması üçün xərclər nəzərdə tutulur.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB